Hürriyyət

# Layihə

SİZİN ÜÇÜN QƏZET

№10 (3110) 30 Yanvar - 1 Fevral / 2021-ci il



www.hurriyyet.org; / hurriyyet@mail.ru

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

# Azərbaycanın diaspor siyasəti: uğurlar və qarşıdakı hədəflər

**Bütün dünya ölkələrinin xarici siyasətində diaspor anlayışının özünəməxsus yeri var. Hər bir dönəmdə sosial-psixoloji və mənəvi baxımdan kompleks daşıyan diaspora anlayışı bir xalqa məsus olan dəyərlərin təzhürü deməkdir. Hər bir diaspor öz milli maraqlarını qorumaqla yanaşı, transnasional mahiyyətlə bağlıdır.**

Bununla yanaşı, onu da qeyd etməliyik ki, inkişaf etmiş xalqlarda diaspor anlayışı həm də "KÖRPÜ" rolunu oynamaq statusu ilə seçilir. Bu gün ABŞ kimi nəhəng ölkədə hindli, çinli, ukrain, yəhudi, meksikalı, afroamerika, indus, irland, alman, italyan və s. xalqların diaspor təşkilatları onların mənsub olduqları dövlətlərlə bağlı milli maraqları asanlıqla təmin olunur. Çünki hər bir diaspor mənsubiyyətlə bağlı ABŞ arasında körpü statusuna malikdir. İndiki dönəmdə ABŞ-İsrail, ABŞ-Hindıstan, ABŞ-Meksika, ABŞ-Çin, ABŞ-Ukrayna, ABŞ-Almaniya, ABŞ-İtaliya, ABŞ-İrlandiya və sair ölkələrlə inteqrasiyanın müasir standartlar çərçivəsində irəli addım ata bilməsində diaspor strukturları həmin körpünün baslıca təməli sayılır.

## Azərbaycanda diaspor quruculuğu

Mərhum prezident Heydər Əliyevin sərəncamı ilə 2001-ci il 23 may tarixində təsis olunan "Diasporla İş üzrə Dövlət Komitəsi" çox böyük ümidlərlə səbəb olmuşdu. Demək olar ki, dünyanın dörd bir yanına səpələnmiş soydaşlarımız bu sərəncamı könül dolusu alqışlamışdılar. Buna görə də görkəmli dövlət xadimi mərhum prezident Heydər Əliyevin Almaniyaya səfərlərinin birində Bonn şəhərində soydaşlarımızla görüşdə söylədiyi dərin məzmunlu nitqində müdrik tövsiyələrindən biri məhz fikir, əməl birliyinə aid idi: "...Mən demirəm ki, 40 milyon azərbaycanlının hamısı bir yerə yığışsın, bu, heç lazım da deyil. Ancaq hamısının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra daha da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər... Mən Azərbaycanın Prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza rəhbərlik edən bir şəxs kimi bu gün deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir".

Bu komitə 2018-ci ilə qədər demək olar ki, dövlətmizin, nə də xalqımızın etimadını doğrulda bilmədi. Bunun baslıca günahkarı isəbu quruma rəhbərlik edənlərin diaspora siyasətini düzgün qura bilməməsi idi. Diaspor işi üzrə zəngin təcrübəsi olan kadrlar, peşəkar elmi araşdırmaçılar bu prosesdən kənarda saxlanılmışdılar. Demək olar ki, postsovet məkanında fəaliyyət göstərən əksər diaspor təşkilatları kriminal elementlərdən və nepotizm siyasəti yürüdənlərdən təşkil edilmişdi. Ona görə də milli həmrəylik və vətəndaş cəmiyyətinin qurulmasında çoxlu problemlər yaşanılırdı. Başqa bir yandan keçmiş Sovetlər Birliyi dönəmində olduğu kimi, "ələbaxımlılıq" siyasəti aparıcı mövqelərə çıxarılmışdı. Dünyanın inkişaf etmiş xalqları heç bir zaman mənsub olduğu dövlətdən diaspor siyasəti və lobbiçilik üçün göstərdikləri fəaliyyətə görə donor rolunda çıxış etmirlər. Tamamilə bunun əksinə, tarixi bağlantıları olduqları dövlətə ən yüksək səviyyədə iqtisadi, siyasi, ictimai və digər yardımları könüllülük əsasında həyata keçirirlər. ABŞ-da 14 milyon nəfər irland mənşəli vətəndaşlar yaşayırlar. Onlar iki yüz ildən çoxdur tarixi dövlətləri İrlandiyaya hərtərəfli yardımlarda bulunurlar. Beləliklə də bir yandan İrlandiyanın ABŞ-la olan münasibətlərində aktiv rol oynamaqla yanaşı, həm də öz ölkələrinin iqtisadi, ictimai və mədəni həyatında inkişafı baxımından müstəsna rol oynayırlar. ABŞ-da 5 milyona yaxın yəhudi mənşəli insanlar yaşayırlar. Beləliklə yəhudi diasporunun sayəsində ABŞ-İsrail münasibətləri ən üstün səviyyədə nəinki inkişaf mövcuddur, həm də İsrail dövlətinin qorunması və mövcudluğu üçün müstəsna güc sahibinə çevriliblər. İnkişaf etmiş xalqların diaspor tarixi ilə bağlı çoxlu örnəklər göstərmək olar ki, dövlətləşmə və millətləşmə prosesində özümlü rol oynayıblar. Azərbaycan diasporunun belə bir məcraya inkişafına ən böyük zərbəni Diasporla İş üzrə Dövlət Komitəsinin keçmiş rəhbərliyi tərəfindən vurulduğuna görə, indi mövcud yaraları müalicə etmək üçün xeyli vaxt tələb olunur.



## Diaspor anlayışının mahiyyəti

Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinin dəyişməsinin sonucu olaraq, bu sahədə illərdir mövcud olan problemdən çıxış yolu kimi, ilk olaraq uzun illərdir bir-biri ilə kin-ədavət saxlayan iriçəkili diaspor təşkilatları arasında barış gündəmə gətirildi. Regional diaspora siyasətində yerli özəllikləri nəzərə alaraq, intellektual iradəyə üstünlük verildi. Mədəni tədbirlər və ictimai-siyasi xarakter daşıyan mövzuların xarakterində bir sıra redaktələr edildi.

Faktiki olaraq, Fransa, İsveç, Norveç, Almaniya, Ukrayna və digər ölkələrdə diaspor siyasətində müsbət mənada üstünlüklər önə çıxdı. Bu, yerli elm, mədəniyyət, ictimai və digər sahələrin nüfuzlu mütəxəssislərlə ortaq fəaliyyətlərin hərəkətə keçməsi ilə müşahidə olunmağa başladı. Finlandiya, ABŞ, Kanada, Ukrayna, Norveç, Avstriya və digər ölkələrdə diasporumuzu təmsil edən, eyni zamanda həmin ölkələrin elmi, ictimai və sosial həyatında fəal olan kadrlarla ortaq layihələrin həyata keçirilməsinə başlanıldı. Bu ölkələrdə dövlət və cəmiyyətlə milli diasporumuzun dialoqlarının təşkili isə, ilk dəfə tətbiq olundu. Bu layihələrin həyata keçirilməsində faktiki olaraq dövlət büdcəmizdən qəpik də xərclənmədi. Çünki, kadrların seçimi və onların diaspor adına fəaliyyətləri ilə bağlı proqnozlar özünü doğrultdu. Kanadanın Toronto şəhərində a fəaliyyət göstərən "Təbriz" Orkestri, İsveçin paytaxtı Stohkolmdakı "Qarabağ" Uşaq Ansamblı, Rusiyanın başkəndi Moskvadakı "Şəhriyar" Ədəbi Məclisi və digər mədəni sahədə mövcud olan qurumlar Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsindən bir qəpik də almadan öz layihələrini həyata keçirməklə bir yandan qürbətdə milli varlığımızı yaşadır, digər yandan isə Azərbaycan dövlətinə dəstək olan layihələri də həyata keçirirlər. Bir sözlə keçmişin qalığı olan "ələbaxımlılıq", "nepotism" maraqları çərçivəsində köklənmiş anlayışlara əlvida deyilir.

Yeri gəlmişkən, Dünya Azərbaycanlılarının son qurultayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bütün diaspor təşkilatlarımızı təmsil edən nümayəndələrə üzü tutaraq bunları demişdir: "Çox şadam ki, dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları artıq tam formalaşıb. Birinci qurultaydan keçən dövrdə, yəni 10 il ərzində böyük işlər görülüb, təşkilatların sayı artıb. Beş il əvvəl 336 diaspor təşkilatımız var idisə, hazırda onların sayı 416-ya çatıb. Bu, çox vacibdir. Ancaq eyni zamanda, kəmiyyət bu məsələ ilə əlaqədar bəlkə də həlledici rol oynamır. Mən çox şadam ki, diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür və təsirlidir. Müxtəlif ölkələrdə bizim diaspor təşkilatları tərəfindən keçirilmiş aksiyalar onu göstərir ki, istənilən yerdə təşkilatlarımız öz fikrini, öz etirazını, yaxud da ki, öz dəstəyini göstərə bilərlər. Bu, çox mühüm amildir. Mən çox şadam ki, bu gün dünyada fəaliyyət göstərən diaspor təşkilatları yeni səviyyəyə qalxıbdır. Bu təşkilatlar arasında koordinasiya işlərinin aparılması əlbəttə ki, onların fəaliyyətini daha da gücləndirir. Mən hesab edirəm ki, diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan icmaları birləşdirməlidir. İdeal variant ondan ibarət ola bilər ki, hər bir azərbaycanlı diaspor təşkilatlarına üzv olsun, onların tədbirlərində iştirak etsin, dəstəyini versin, köməyini göstərsin və eyni zamanda, diaspor təşkilatları tərəfindən də lazım olanda kömək görsün. Bunu etmək üçün bu təşkilatlar daha da güclü olmalıdır. Mən hesab edirəm ki, ən vacib amillərdən biri diaspor təşkilatlarının birliyidir. Birlik bizi gücləndirir. Birlik olmasa, biz güclü ola bilmərik. Bu aksiomadır. Ona görə hesab edirəm ki, diaspor təşkilatlarının fəaliyyətinin inkişafı üçün biz birliyi tam şəkildə təmin etməliyik. Diaspor təşkilatlarının fəaliyyəti, eyni zamanda, erməni lobbisinin Azərbaycan əleyhinə apardığı çirkin kampaniyaya qarşı tutarlı bir cavabdır. Sirr deyil ki, müstəqilliyimizin ilk illərində bizim nə böyük maliyyə imkanlarımız var idi, xaricdə yaşayan azərbaycanlılar da o vaxt hələ təşkilatlanmamışdılar. Ancaq hazırda bütün ölkələrdə diaspor təşkilatlarımız erməni təbliğatına qarşı Azərbaycan reallıqlarını ortaya qoyurlar. Mən bu hərəkətləri, bu siyasəti alqışlayıram və bizim diaspor təşkilatlarının üzvlərinə bu fədakar və çox gözəl missiyaya görə minnətdarlığımı bildirmək istəyirəm. Biz çalışmalıyıq ki, Azərbaycan haqqında reallıqları bütün dünyaya bildirək. Bizə qarşı dünyada erməni lobbisi fəaliyyət göstərir. Bizə qarşı mübarizə aparır. Onların təsir dairəsində olan bəzi siyasətçilər, bəzi mətbu orqanlar, bəzi ictimai qurumlar Azərbaycana qarşı kampaniya aparırlar - ləkələmə kampaniyası, Azərbaycan reallıqlarını təhrif etmək üçün uydurmalar, düzgün olmayan faktlar yayırlar, yalanlar, böhtanlar yağdırırlar".

Müasir dünyada diaspor fenomeni həm də özünün evolyusiyalı xətt üzrə inkişaf tempinə çox bağlıdır. Bəzi diaspor təşkilatları özlərinin çoxsaylı özvlərinin sayı ilə deyil, daha çox effektiv təsir imkanlarının miqyası ilə hərəkət edirlər. Bununla yanaşı o da bəllidir ki, diaspor təşkilatlarının fəaliyyət mexanizmlərinə həm də mənsub olduğu dövlətin hədəflərini düzgün ortaya qoya bilməsindədir. Bütün bunları nəzərə alaraq, ona görə dönə-dönə qeyd edirik ki, milli diasporumuzun inkişafı ilə bağlı dünyada baş verən proseslər elmi-nəzəri və praktik baxımdan ciddi təhlil edilməli, sonra isə, bu prosesdə diaspor təşkilatlarımızın təsnifatına uyğun gərəkən addımlar atılmalıdır. Belə bir yanaşım tərzi dövlətlərarası və xalqlararsı dinamik şəkildə inkişaf modellərinin tətbiqində olduqca vacibdir. Məhz bu baxımdan milli diasporumuzun daha da inkişaf etməsi Azərbaycan dövlətinin ən müasir standartlar çərçivəsində inkişafı üçün zəruridir.



**"Hürriyyət"**